

**Niyaz Cəfərov**
*teatrşünas*

**Teatr mövsümü başa çatsa da, mediada teatr söhbətləri, daha doğrusu qalmaqalları bitmək bilmir. Yeri gəlmişkən, biz heç bilmirdik ki, tamaşalara dəvət olunub gəlməyən jurnalistlər bu dərəcədə teatr mövzusunda canfəşanlıq göstərə bilirlər. Sayələrində hər yerdə sakini olduğumuz teatrlardan danışılır.**
**Biz, teatrın məsum qulları isə işimizi davam etdiririk. Və gəncləri tanıtmaq, fikirlərini bölüşmək istəyi ilə gənc qonağımızı sizlərə təqdim etmək istəyirik. Qəzetimizin bu sayının qonağı Mingəçevir Dövlət Dram Teatrının gənc, istedadlı aktrisası Fəridə Məmmədovadır.**



# Fəridə Məmmədova: "Qorxu və sevinc içimdə əlbəyaxa olmuşdu..."

Qısa arayış...
*Mən Fəridə Məmmədova 1991-ci il may ayının 29-da Şəki şəhərində anadan olmuşam. Bir yaşım olarkən ailəmlə birlikdə Mingəçevir şəhərinə köçmüşük. Burada 14 saylı orta məktəbi bitirmişəm. Hazırda Mingəçevir Turizm Kollecində təhsil alıram. Təhsilimi başa vurub, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olmaq arzusundayam. Aktrisa olmağa uşaqlıqdan həvəsim var idi. Lakin teatrda çalışmaq ağlıma gəlmirdi (gülür). Əvvəllər region televiziyasının aparıcısı olmuşam. Sonra, teatrımızın əvvəlki direktoru Həsən müəllim məni teatra dəvət etdi, mən də bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim. Artıq 5 ildir Mingəçevir Dövlət Dram Teatrında çalışıram. Demək olar ki, teatrımızın tamaşalarında səhnəyə qoyulan bütün tamaşalarda baş rolda çıxış edirəm. Ali dərəcəli aktrisayam. Eyni zamada "El tv"-də aparıcı kimi çalışıram.*

**- Səhnədə ilk addım, debüt həyəcanını necə xatırlayırsan?**
- İlk dəfə səhnəyə gürcü yazıçısı Nodar Dumbadzenin "Mən, nənəm, İliko və İllarion" romanı əsasında Bəhram Osmanovun quruluş verdiyi tamaşa ilə addım atmışam. O zaman keçirdiyim həyəcanı sözlə ifadə etmək mümkün deyil. Qorxu və sevinc içimdə əlbəyaxa olmuşdu sanki. Bəzən vəziyyət o həddə çatırdı ki, tamaşanı yarıda saxlayıb səhnəni tərk etmək istəyirdim (gülür). Lakin özümü topladım və debütümü uğurla tamamladım.

**-Teatr, səhnə sənin üçün nəyi ifadə edir?**
-Səhnə mənim üçün duyğularımın coşduğu, fəvvarə vurduğu məkandı. Mən duyğularımı, sevinc və kədərimi paylaşmağı sevirəm. Teatr mənə bölüşmək, paylaşmaq imkanı verir.

**-Bir gənc olaraq, gənclik və teatrın qarşılıqlı münasibətlərini necə xarakterizə edirsən?**
- Əslində, özüm də daxil olmaqla, gənclərin teatra, incəsənətə olan marağını çox yüksək qiymətləndirirəm. İndi texnologiya əsridir. Gənclərin əksəriyyəti demək olar ki, vaxtlarını kompüter qarşısında keçirirlər. Texnologiyanın insan duyğularına hakim olduğu bir zamanda teatrla məşğul olan gəncləri mən gəncliyin texnoloji əsarətdən xilaskarı kimi dəyərləndirirəm.

**- Azərbaycan teatr prosesində baş verənləri təhlil etsən, nələri qeyd edərsən. Nələrdən razısan, nələrdən narazısan?**
- (gülür) Hazırda Azərbaycan teatr prosesində baş verənləri təhlil etmək və fikir yürütmək üçün mən çox gəncəm. Buna mənim nə yaşım, nə də təcrübəm imkan verməz. Mən hələ kamilləşmə prosesi keçirəm, önümdə qət edəcəyim çox uzun bir yol var. Mingəçevir Dövlət Dram Teatrının mənə yaratdığı hər bir şəraitdən razıyam. Mən bu gün özümü ifadə edə bilirəmsə, bu teatrın, səhnənin sayəsindədir.

**- Rol aldığın tamaşalarda tamaşaçıya daha çox nələri çatdırmağa çalışırsan?**
- Mən hər zaman tamaşaçıya sadəliyi, gözəlliyi, təbiiliyi çatdırmağa çalışmışam. İnsan təbii olduqca insandır, yaşamağa dəyər. Mən, tamaşaçını özümdən ayırmıram, duyğularımı mənimlə bölüşən, hiss-həyacanıma şərik olan tamaşaçı mənim üçün çox dəyərlidir.

**- Özünü daha çox hansı ampluada görürsən?**
- Konkret olaraq özümü bu və ya digər ampluaya şamil etməyimi düzgün hesab etmirəm. Düşünürəm ki, hər bir rolun öhdəsindən gəlməyi bacarmalıyam, istər baş rol olsun, istər ikinci plan, istər faciə olsun, istər komediya. Mən aktrisayam, mənə nə rol verilirsə, onu əlimdən gəldiyi qədər mükəmməl oynamağa çalışıram.

**- Bir tamaşaçı kimi, tamaşa izlərkən nələrə diqqət edirsən?**
- Etiraf edim ki, tamaşaçı olaraq tamaşa izləmək imkanım yoxdur. Demək olar ki, teatrımızın səhnəsində oynanılan bütün tamaşalarda rol alıram (gülür). Lakin mənim tamaşaçı yaşından və cinsindən asılı olmayaraq bütün insanlara müraciət edə bilməsidir.

**- Yaşlı nəslin gənc nəsilə qarşı giley-güzarına münasibətin necədir?**
- Mənim böyüklərə hörmətim sonsuzdur. Onlar bizim başımızın tacıdırlar. Hər halda onlar biz gənclərin keçdiyi yolları keçiblər, qarşıda bizi nələrin gözlədiyini bilirlər. Bir gənc olaraq biz dinləməyi, öyüd nəsihət almağı bacarmalıyıq.

**- Hansı rejissorlarla çalışmaq sənə daha xoşdur?**
- Vaqif Əsədov, Ağaxan Salmanov, Bəhram Osmanov kimi rejissorlarla işləmək mənə zövq verir. İstər aktyor olsun, istər rejissor, məni anlayan, səbirli insanla çalışmağı sevirəm.

**- Arzusunda olduğunuz rol varmı?**
- Mənim arzum səhnədə olmaqdır, roludan asılı olmayaraq (gülür). Hər hansı bir rol arzusunda deyiləm. Mən sadəcə oynamaq istəyirəm, səhnədə var olmaq, yaşamaq istəyirəm.

**- Mütaliə edirsənmi?**
- Əlbəttə, heç mütaliəsiz teatr adamı olar (gülür)? Mütaliəni çox sevirəm. Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Nəcəf Bəy Vəzirov, Ənvər Məmmədxanlı kimi milli müəllifləri, Anton Çexov, Fyodr Dostoyevski, Rabindranat Taqor, Ernest Hemenquey kimi dünya ədəbiyyatı incilərini sevirəm.

**- Gələcək planların nədir?**
- Yaşamaq və yaratmaq (gülür).

**-Son olaraq nə demək istəyirsən?**
-Mən Mingəçevir Dövlət Dram Teatrının kollektivinə, başda direktorumuz olmaqla, mənə və mənim kimi gənclərə göstərdikləri dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Gənclərə isə bir qədər sosial şəbəkədən uzaqlaşıb canlı sənətlə, maraqlanmağı, məşğul olmağı təklif edirəm, məsləhət vermək üçün hələ çox gəncəm (gülür). Gəlin bir gənc olaraq enerjimizi Azərbaycan mədəniyyətinin daha da inkişaf etməsi yolunda sərf edək.

**-Müsahibəyə görə sənə təşəkkür edir, yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.**



